# SOME PROBLEMS OF SOCIAL DEVELOPMENT OF PRESCHOOLERS

**Dilshad Dadashova**

Baku city, Khatai district, head of the kindergarten No. 72
E-mail: dadashova.dilshad@mail.ru
https://orcid.org/0000-0003-2288-9886

**Abstract.** The article discusses the cooperation of educators-teachers working in preschool education institutions in the social education of children, the problems of social development, and the reasons for its non-formation. Solutions are presented in the form of recommendations for the comprehensive and social development of the individual. The article notes that the formation of children's personalities, their ability to interact with adults and peers, their ability to communicate, and their ability to join the system of relationships, in general – are all the qualities necessary to be involved in school learning. Family upbringing, parent-child relations, parental attitude to school education, the influence of other adults in the family, the child's characteristics, interests, mental and spiritual development also have a decisive impact. In short, when objective and subjective factors are taken together, purposeful, systematic work is carried out, and natural opportunities become a reality. The article presents the socialization of preschoolers, training with the application of new, modern approaches, as well as recommendations for parents.

**Keywords**: preschoolers, social development, preschool age, developmental environment, personality development, integration, cooperation with parents.

**To cite this article:** Dadashova D. (2022). Some problems of social development of preschoolers. *Journal of Preschool and Primary Education*, Vol. 240, Issue III, pp. 71-80.
**Article history:** received – 22.07.2022; accepted – 26.08.2022.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL İNKİŞAFININ BƏZİ PROBLEMLƏRİ

**Dilşad Dadaşova**

Bakı şəhəri, Xətai rayonu,
72 saylı körpələr evi-uşaq bağçasının müdiri
E-mail:dadashova.dilshad@mail.ru
https://orcid.org/0000-0003-2288-9886

**Annotasiya.** Məqalədə uşaqların sosial tərbiyəsində məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlərin qarşılıqlı əməkdaşlığı, sosial inkişaf problemləri, onun formalaşmasına mane olan cəhətlərdən bəhs olunur. Şəxsiyyətin hərtərəfli və sosial inkişafı üçün tövsiyələr şəklində həll yolları təqdim olunur. Məqalədə uşaq şəxsiyyətinin formalaşması, onların böyüklər və yaşıdları ilə birgə fəaliyyət göstərmək, ünsiyyətə girə bilmək, münasibətlər sisteminə qoşulmaq bacarıqlarından söhbət gedir. Bir sözlə – məktəb təliminə cəlb olunmaq üçün lazım olan bütün bu keyfiyyətlər uşaqlarda özünü göstərməlidir. Burada ailə tərbiyəsi, valideyn-uşaq münasibətləri, valideynin məktəb təliminə münasibəti, ailədəki digər yaşlıların uşağa təsiri, uşağın fərdi xüsusiyyətləri, maraqları, əqli və psixi inkişafı da həlledici təsirə malikdir. Beləliklə, obyektiv və subyektiv amillər vəhdətdə götürüldükdə, məqsədyönlü, sistemli iş aparıldıqda təbii imkanlar reallığa çevrilir. Məqalədə məktəbəqədər yaşlı uşaqların sosiallaşması, təlimin yeni, müasir yanaşmaların tətbiqi ilə aparılması, həmçinin valideynlərə tövsiyələr təqdim olunur.

**Açar sözlər:** məktəbəqədər yaşlı uşaq, sosial inkişaf, məktəbəqədər yaş dövrü, inkişafetdirici mühit, şəxsiyyətyönümlü inkişaf, inteqrasiya, valideynlərlə əməkdaşlıq.

**Məqaləyə istinad:** Dadaşova D. (2022). Məktəbəqədər yaşlı uşaqların sosial inkişafının bəzi problemləri. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 3 (240), səh. 71-80.
**Məqalə tarixçəsi:** göndərilib – 22.07.2022; qəbul edilib – 26.08.2022.

## Giriş / Introduction

Uşaqlıq – insan həyatının ən gözəl dövrüdür. Məhz bu dövrdə insan orqanizminin fiziki cəhətdən, şəxsiyyətinin mənəvi cəhətdən formalaşması baş verir. İnsanın yetkin həyatını, əsasən uşaqlıq dövründə qazanılmış təcrübə müəyyən edir. Həyatının başlanğıcında müdafiəsiz körpənin yanında onun üçün ən vacib insanlar – valideynləri olurlar. Uşağın sosial inkişafı onun yaşına və inkişafına uyğun olaraq, məsuliyyətlərini başa düşməsi, ətrafındakı insanlarla münasibət qura bilməsi, ailə və cəmiyyətin qaydalarına uyğun davranmasıdır. Uşağın ana-atası və ətrafında olan insanlarla yaşaması onun sosial həyatının başlanğıcıdır. Doğulduğu andan etibarən uşağın sosial inkişafı başlayır və çevrəsindəki insanlarla qurduğu münasibətlər davam edir. Uşaqlar fiziki və zehni baxımdan inkişaf etdikcə, onların çevrəsi də genişlənir.

Uşağın keçdiyi yol onun gələcək həyatının uğuruna birbaşa təsir göstərir. Sosial inkişaf bu dövrün dəyərli təcrübəsidir. Uşağın məktəbə psixoloji hazırlığı, əsasən, digər uşaqlar və böyüklərlə ünsiyyət qurmağı, onlarla münasibət yaratmağı bacarıb-bacarmamasından asılıdır. Məktəbəqədər yaşlı uşaq üçün yaşına uyğun bilikləri nə qədər tez əldə etməsi də vacibdir. Bütün bu amillər gələcəkdə uğurlu tədqiqatların açarıdır [Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartları., 2019].

Beləliklə, ailədə başlayan sosial münasibətlər əvvəl məktəbəqədər müəssisələrdə, sonra isə məktəb həyatında dostluq, yoldaşlıq münasibətləri ilə davam edir.

Tədqiqat 2020–2022-ci illərdə, Xətai rayonunun 72 saylı uşaq bağçasında aparılmışdır. Tədqiqat prosesində müşahidə, müsahibə metodlarından istifadə olunmuşdur.

## Əsas hissə / Main part

“Sosial inkişaf” (və ya “sosiallaşma”) nə deməkdir? Bu, uşağın yaşadığı və inkişaf etdiyi cəmiyyətin ənənələrini, dəyərlərini, mədəniyyətini mənimsədiyi bir müddətdir, yəni körpənin başlanğıc mədəniyyətinin formalaşdığı bir dövrdür. Uşağın sosial inkişafı onun yaşına və inkişafına uyğun olan məsuliyyətləri yerinə yetirməsi, digər insanlarla münasibət qura bilməsi, ailə və cəmiyyətin qayda-qanunlarına uyğun davranması deməkdir.

“Sosiallaşma – şəxsiyyətin formalaşması prosesidir. Belə formalaşma prosesində fərdin dili, sosial dəyərləri və təcrübəni (normaları, istiqamətləri, davranış nümunələrini) mənimsəməsi, onun tərəfindən həmin cəmiyyətə, sosial ictima-

iyyətə, sosial qrupa məxsus mədəniyyətin və sosial əlaqələrin, sosial təcrübələrin yenilənməsi prosesi baş verir. Sosiallaşma – həm proses, həm də nəticə kimi nəzərdə tutulur" [Mardaxayev L.V., Slovar po sotsialnoy pedagogike, 2002].

Uşaqların mühüm inkişaf mərhələlərindən olan sosiallaşma, ən azı digər inkişaf sahələri qədər vacibdir. Uşağın doğulduğu gündən etibarən çevrəsindəki insanlarla münasibətə girməyə cəhd etməsi sosiallaşmanın ilk addımları kimi qəbul edilir. Körpəlik və ilk uşaqlıq dövrlərində uşaq çevrəsindəki böyüklərlə ünsiyyətə girərək, onların sosial dünyasını anlamağa çalışır. Beləcə, o, böyüklərin davranışlarını təqlid edərək öyrənməyə başlayır. Məktəbəqədər yaş dövrü uşağın sürətlə sosiallaşdığı dövrdür. Uşaq ilk dəfə valideynlərinin olmadığı mühitdə öyrənməyə başlayır və heç kimdən asılı olmadığını sübut etməyə çalışır. Uşağın məktəbə getməsi ilə onun sosial əhatə dairəsi bir daha dəyişir.

"Sosial inkişaf böyüklərin köməyi ilə həyata keçirilir. Uşaq ünsiyyət qurarkən, maraqlarını və həmsöhbətlərini nəzərə almağa çalışaraq, qaydalarla yaşamağa başlayır, xüsusi davranış normalarını qəbul edir. Ətraf mühit körpənin inkişafına birbaşa təsir etmir. Ətraf mühit, ilk növbədə, cəmiyyətdə hökm sürən müəyyən qaydalara görə bir-biri ilə qarşılıqlı əlaqədə olan insanlardır. Uşağın tərbiyəsi ilə məşğul olan böyüklər onun həyatına yeni məna qatır, birbaşa və ya dolayısı ilə onun xarakterini formalaşdırırlar. Böyüklər əşyalarla necə davranmaq lazım olduğuna dair bilik və bacarıqlarını nümayiş etdirirlər. Uşaq da, öz növbəsində, gördüklərini mənimsəyir. Bu təcrübədən istifadə edərək, uşaqlar öz kiçik dünyalarında bir-biri ilə ünsiyyət qurmağı öyrənirlər" [Cəfərova L., 2009].

Unutmaq olmaz ki, böyük məktəbəqədər yaşlı uşaq çox vaxt emosiyalarla yaşayır və həmin emosional mühit onun daxili, ruhi aləminə təsir edir. Uşağın tərbiyəsində və inkişafında, onun sosial təcrübəyə yiyələnməsində mühüm amil ailədir (sosiallaşma institutlarından biri kimi). Ailədə uşaq ünsiyyət qurmağı öyrənir, ilk sosial təcrübəni əldə edir. Təhsil təcrübəsinin öyrənilməsi göstərir ki, ənənəvi olaraq məktəbəqədər yaşlı uşaqların sosial tərbiyəsi məsələlərinə lazımi diqqət yetirilmir, uşağın sosiallaşması prosesinə ailənin təsiri çox vaxt nəzərə alınmır.

Məktəbəqədər müəssisə sosiallaşmanın əsas institutlarından biri olduğundan, uşağın uğurlu sosiallaşması üçün, onun davranış, emosional-hissi inkişafı üçün şəraitin təşkilində bu müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsinə diqqət yetirmək lazımdır. Başqa sözlə, uşağın sosiallaşması prosesində davranış norma və qaydalarını, müxtəlif vəziyyətlərə emosional reaksiya verməyi, müxtəlif hisslərin təzahürü və yaşanma yollarını öyrətmək lazımdır. Uşaq tədricən təbiəti və sosial dünyanı öyrənməyi, həyatını necə təşkil etməyi, hansı əxlaqi və etik qaydalara riayət edəcəyini, şəxsiyyətlərarası ünsiyyətdə və birgə fəaliyyətlərdə necə səmərəli iştirak edəcəyini öyrənir. Məktəbəqədər təhsil müəssisəsində tərbiyə və

təlim prosesinin uşağın sosiallaşmasının əsas istiqamətlərini (təbii-mədəni, sosial-mədəni, sosial-psixoloji və s.) əhatə etməsi, tam və uğurlu sosiallaşması üçün ilkin şərtləri müəyyən etməsi vacibdir, yəni gələcəkdə uşağın bu sistemin tərkib hissəsi kimi sosial münasibətlər sisteminə daxil olması üçün şəraiti təşkil etmək lazımdır, çünki uşaq da cəmiyyətin bir hissəsidir [Cəfərova L., 2013].

Bu şərtlərin tam yerinə yetirilməsi və nəzərəçarpacaq nəticələr verməsi üçün məktəbəqədər təhsil müəssisəsi uşağın valideynləri, ailəsi ilə münasibətlər yaratmalı və onları inkişaf etdirməlidir. Ailə, məktəbəqədər yaşlı uşağın sosiallaşması üçün əsas sosial institutlardan biri kimi, məktəbəqədər təhsil müəssisəsi ilə birbaşa əlaqə saxlamalıdır. Aydındır ki, ailə və məktəbəqədər müəssisə öz xüsusi funksiyalarını yerinə yetirərkən bir-birini əvəz edə bilməz və onlar uşağın hərtərəfli inkişafı üçün qarşılıqlı əlaqədə olmalıdırlar.

Ailədə olan optimizm, sevinc, məhəbbət, incəlik, diqqət, səmimilik dolu müsbət emosional iqlim uşağın psixi sağlamlığı üçün əsas şərtlərdəndir. Böyüklərin ətrafda baş verən hadisələrə reaksiyası uşağın təsəvvürlərinin formalaşmasında böyük əhəmiyyət kəsb edir. Uşaq bütün emosional reaksiyaları dəqiqliklə qəbul edir və mənimsəyir. Ailədəki xeyirxah münasibət, valideynlərin uşağa, biri-birinə diqqəti, səmimi münasibəti və eyni zamanda, bunlara əks olan cəhətlər də uşaq tərəfindən olduğu kimi mənimsənilir. Bir çox ailələrdə qarşılıqlı hörmət, qayğıkeş münasibət yox dərəcəsindədir. Belə olduqda uşaqda nəvazişə, məhəbbətə, qayğıya olan daxili tələbat ödənilmir. Bu da uşaqda mənəvi və psixi zədələnmələr əmələ gətirir ki, bunun nəticəsində də gələcəkdə valideynlərlə münasibətlərdə problemlər yaranır.

Məktəbəqədər yaşlı uşaqlarda sosial və emosional keyfiyyətlər vəhdətdə inkişaf edir. Uşaq öz emosional sahəsini məhz yaşadığı sosial mühitin normaları əsasında, buna müvafiq olaraq tənzimləyir. Sosial-emosional inkişaf nəticəsində uşaqlarda insanlara müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq və s. mənəvi keyfiyyətlər yaranır. Uşaqlar oyun, əmək və əməli fəaliyyətə, kollektivdə davranış qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər. Ünsiyyətin köməyi ilə birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, qarşılıqlı təsir və qarşılıqlı anlaşma təmin olunur. Ünsiyyət uşağın sosial şəxsiyyət kimi formalaşmasında əsas vasitəyə çevrilir.

Ünsiyyət – uşağın sosial keyfiyyətlərinin formalaşmasında da başlıca rol oynayır. Bu dövrdə valideynlə uşaq daha çox ünsiyyətdə olurlar. Uşağın sosial tərbiyəsi onun sosial inkişafının əsasını təşkil edir. Məhz məktəbəqədər yaş dövründə uşaqlarla böyüklər arasında qarşılıqlı ünsiyyət yaranır. Erkən uşaqlıq dövründə uşaqlar əşyalardan necə istifadə etmək lazım olduğunu öyrənirlər. Daha sonra böyüklər onlar üçün bir təqlid obyektinə çevrilir və uşaqlar onların hərəkətlərini təkrar edir, onlar kimi davranmağa başlayırlar.

**Bəs sosial tərbiyə nədir?**

Sosial tərbiyə uşağın başqalarının maraqlarına diqqət yetirməsi, işləri ilə maraqlanmaq, hər bir peşəyə, insanlara hörmətlə yanaşmaq, başqalarının kədərinə heyfslənmək, sevincinə şərik olmaq və s. deməkdir. Bütün bunlar tərbiyədə əsas amillərdəndir, çünki bu dövrdə uşaqlarda həm də paxıllıq hissi formalaşır. Sosial tərbiyə, həm də etdikləri düzgün olmayan hərəkətə görə uşaqlarda günahkarlıq hissinin formalaşmasıdır, məsələn, uşaq öz yaşıdının əlindən oyuncağı kobudcasına aldığına görə narahat olmalı və etdiyi hərəkətə görə üzr istəməlidir.

Böyüklərlə uşaqların ünsiyyəti emosional əsaslarda baş verir. Başqalarının dərdinə şərik olmaq uşaq üçün xarakterik xüsusiyyətdir. Bu, uşağın şəxsiyyətini zənginləşdirir, onu başqalarının dərdinə, böyüklərin təsirinə qarşı daha həssas edir. Uşağın ailə üzvləri ilə ünsiyyəti nə qədər uzunmüddətli və zəngin olarsa, onun şəxsiyyəti də bir o qədər zəngin olar. Uşaqlarla məzmunlu və kifayət qədər uzunmüddətli ünsiyyətin təşkili istənilən yaşda onların tərbiyəsi üçün əsas şərtdir, lakin vaxt keçdikcə, uşağın istəyindən asılı olaraq, ünsiyyətin məzmunu da dəyişir. Böyük məktəbəqədər yaşlı uşaq ünsiyyət zamanı öz emosional və intellektual tələbatını təmin etməklə yanaşı, həm də özünü qiymətləndirmək, özünü təsdiq və özünü dərk etmək istəyir.

Özü haqqında təsəvvür, özünə hörmət və ya hörmətsizlik məhz özünüqiymətləndirmədir. Bu, uşaqların başqaları ilə ünsiyyəti prosesində formalaşır. Böyük məktəbəqədər yaş dövründə uşağın şəxsiyyətinin qiymətləndirilməsinə tələbat artır. Böyüklərin uşağı düzgün qiymətləndirməsi onda vəzifə borcu, öz qüvvəsinə inam, məsuliyyət, mütəşəkkillik və digər keyfiyyətlərin tərbiyə olunmasına zəmin yaradır və uşağın məktəb təliminə münasibətinə müsbət təsir göstərir.

Məktəbəqədər yaşlı uşaqların inkişafında əsas məsələ onun həmyaşıdları ilə ünsiyyətidir, lakin bu proses mütləq tərbiyəçi-müəllimlə qurulan münasibətlər prizmasından keçir. Həmyaşıdlarla ünsiyyət məktəbəqədər yaşlı uşaqların inkişafında əsas amillərdən biri olsa da, bu münasibətlərin təşkil edilməsində (qurulmasında və ya pozulmasında) əsas qüvvə tərbiyəçi-müəllimdir. Məktəbəqədər yaşlı uşaqların tərbiyəçi-müəllimlə qarşılıqlı münasibətlərində yaranan mənfi emosional hallar həmyaşıdlarla qarşılıqlı münasibətlərin qurulmasında çətinlik yaradır. Bundan başqa, özünəqapanma və asosial davranış məktəbəqədər yaşlı uşaqların tərbiyəçi-müəllimlə qarşılıqlı münasibətlərinin, ən azı, ahəngdar olmamasından xəbər verir. Özünəqapanma və asosial davranış məktəbəqədər yaşlı uşaqların öz vəziyyətinə etiraz formasıdır, onların özünümüdafiə taktikasıdır.

Uşaqların sosial tərbiyəsində məsuliyyət hissinin tərbiyə edilməsinin böyük əhəmiyyəti var. Məsuliyyət hissi kimi şəxsi keyfiyyələr insanların fəaliyyətinin və davranışının tənzimləyicisidir. Onun inkişaf səviyyəsi insanın cəmiyyət normalarını, öz vəzifəsini, həyat mövqeyinin müəyyənləşdirməsini, düzgün davranış

xəttini müəyyən edir. Məsuliyyətli olmağın yüksək səviyyəsi şəxsiyyətin sosial əhəmiyyətli normaları mənimsəməsini, fəaliyyətin qarşıya qoyulmuş vəzifələrə, tələblərə uyğun həyata keçirilməsini, öz hərəkət və əməllərinə görə cavab verməsini diktə edir.

Məktəbəqədər təhsilin müasir təcrübəsi bu mövqeyi həyata keçirir ki, hər bir məktəbəqədər təhsil müəssisəsində uşaqların hərtərəfli sosial inkişafı üçün uşağa sosial motivasiya göstərmək imkanı vermək, vəziyyətə adekvat olan davranış tərzini müstəqil seçmək, inkişaf etdirmək, başqaları ilə münasibətlərə şərait yaratmaq lazımdır. Uşağın sosial inkişafının özəlliyi xüsusi pedaqoji təlimatlarda, məktəbəqədər təhsil müəssisəsində tərbiyə alan uşaqların əsas bacarıqlarının xüsusiyyətlərində, sosial inkişafının göstəricilərində də öz əksini tapır.

Məktəbəqədər təhsil müəssisəsində uşağın sosial inkişafı üçün aşağıdakı pedaqoji təlimatlar verilir:

– tərbiyəçi-müəllim uşaqda şəxsi ləyaqət hissi, öz imkanlarına inam formalaşdırır;
– tərbiyəçi-müəllim uşağda ətrafdakı insanlara müsbət münasibət inkişaf etdirir;
– tərbiyəçi-müəllim uşaqda sosial səriştəlilik və sosial bacarıqları tərbiyə edir.

Məktəbəqədər təhsil müəssisəsində uşağın yiyələndiyi əsas sosial bacarıqlar aşağıdakılardır:

– etiket qaydalarına riayət etmək;
– təhlükəsizlik qaydalarına riayət etmək;
– ətrafdakılarla əməkdaşlıq etmək və qarşılıqlı fəaliyyət göstərmək;
– ümumi davranış qaydalarına əməl etmək;
– münaqişəli situasiyada problemin həlli üsullarını tətbiq etmək.

Məktəbəqədər təhsil müəssisələrində uşağın sosiallaşma səviyyəsinə xüsusi göstəricilərin köməyi ilə nəzarət etmək məqsədəuyğundur. Uşağın aşağıda göstərilən bacarıqları məktəbəqədər yaş dövründə uğurlu sosial inkişafın göstəricisi ola bilər:

– uşağın kollektivə daxil olmaq bacarığı;
– uşağın başqaları ilə birlikdə hərəkət etmək bacarığı;
– uşağın sosial normalara riayət etmək bacarığı;
– uşağın öz istəklərinə nəzarət edə bilməsi və s.

Məktəbəqədər təhsil müəssisəsində uşağın sosial inkişaf səviyyəsi məktəbəqədər yaşlı uşaqların sosial və şəxsi keyfiyyətlərini xarakterizə edən göstəricilərdən istifadə etmək yolu müəyyən edilə bilər:

– uşağın özünə olan marağı;
– uşağın həmyaşıdlarına olan marağı;
– uşağın qrupdakı yoldaşlarına münasibəti və s.

Uşağın məktəb təliminə hazırlanmasında sistemli, gündəlik əmək fəaliyyəti mühüm əhəmiyyət kəsb edir, lakin çalışmaq lazımdır ki, bu fəaliyyət uşağın xudbinlik motivlərini deyil, ictimai fəaliyyətini inkişaf etdirsin. "Uşaqların öz hərəkət və davranışlarına böyüklərin, xüsusilə tərbiyəçi-müəllimin və valideynin verdiyi qiymətə həssas münasibəti göstərir ki, bu, onların özünüqiymətləndirməsinə, öz hərəkətlərinə məntiqi yanaşmalarına, nəticənin qiymətləndirilməsinə təsir göstərir" [Lyublinskaya A.A., 1971].

Valideynlərin nisbətən yuxarı məktəb yaşlı uşaqlarla davranışı da məktəbə getməyə hazırlaşan uşağa təsir edir. Əgər valideyn televizora baxan, oynayan məktəbli uşağa cəza və hədə şəklində "dərslərinə hazırlaşmamısan, get dərsini oxu" deyirsə və belə qadağalar vaxtaşırı baş verirsə, məktəbəqədər yaşlı uşağın məktəbə, təhsilə marağının artmasına mənfi təsir göstərir.

Məktəbəqədər yaşlı uşaqların inkişafında və şəxsiyyətinin formalaşmasında onları yaşadığı sosial mühitin də rolu böyükdür. Bu halda uşaq özünü cəmiyyətin üzvü kimi hiss edir. Onda yalnız valideynlərlə, digər ailə üzvləri, tərbiyəçi-müəllimlərlə deyil, başqa insanlarla da ünsiyyətdə olmaq ehtiyacı yaranır. L.S.Vigotski göstərirdi ki, "hər hansı yaş dövründə inkişafın dinamikasını öyrənərkən, ilk növbədə onu əhatə edən sosial mühit nəzərə alınmalıdır" [Vigotskiy L.S., 1982].

Məktəbəqədər yaşlı uşaqlar öz hərəkətlərinin ətrafdakılara və onların özlərinə də necə təsir etdiyi haqqında düşünmürlər. Bu hərəkətlərin nəticəsini əvvəlcədən görə bilmək bacarığı hələ kifayət qədər inkişaf etmədiyi üçün emosional çılğınlıq, demək olar ki, bu yaşda olan bütün uşaqlar üçün xarakterikdir. Onlar yaxın adamlarının pis əhvalını, yorğunluğunu hiss edir, halına yanır, onu hiss edir və hətta nəvaziş də göstərə bilirlər. Bütün bu xüsusiyyətlərdən daha dərin hisslərin formalaşdırılmasında istifadə etmək olar. Uşağın emosional həssaslığını onun davranışı üçün ilkin motiv kimi istifadə etmək olar. Tədricən hissetmə, həyəcan, paylaşma əsaslı (məsələn, kömək etmək, bölüşmək, incitməmək və s.) humanist hisslər, qarşılıqlı yardım və s. əxlaqi motivlər daha davamlı davranış motivlərinə keçir.

Hər bir valideyn hər hansı pis əhvalın, mənfi davranışın uşağa təsirini nəzərə alaraq, öz hərəkətlərinə tənqidi yanaşmalı, ailədə sakit, normal mühit yaratmalıdır. Valideyn öz pis əhvalının yaxınlarına, xüsusilə uşaqlara təsir etməsinə yol verməməlidir. Əlbəttə, böyüklərin həyəcan, narahatlıq üçün ciddi əsasları ola bilər. Uşaqlar çox vaxt valideynlərin ailədən kənarda qarşılaşdıqları mühüm çətinliklərdən, problemlərdən xəbərdar olurlar, lakin bu, o demək deyil ki, ailə başçısı öz böyük problemlərini uşağın çiyinlərinə yükləyə, ailədə gərgin atmosfer yarada bilər. Ailə başçısının malik olduğu şəxsi keyfiyyətlər ailənin davranış üslubunu müəyyən edir. Deməli, öz uşağınızda görmək istədiyiniz xeyirxahlıq,

nikbinlik, başqasının dərdinə şərik olmaq, onu başa düşmək kimi keyfiyyətlər onun bu keyfiyyətləri sizdə görüb dərk etdiyi zaman inkişaf edəcək.

## Nəticə / Conclusion

Məktəbəqədər yaş insanın sosial inkişafında ən həssas dövrdür. Bu dövrdə:

- məktəbəqədər yaşlı uşaqların sosial inkişafı obyektiv dünyanın və insanlar arasındakı münasibətlər sisteminin inkişafı üçün faktiki, çoxistiqamətli fəaliyyətlərlə həyata keçirilir;
- sosial inkişaf həm sosial amillərin kortəbii təsiri zamanı, həm də məqsədyönlü, mütəşəkkil pedaqoji prosesdə həyata keçirilir;
- sosial inkişaf proqramı sosial mədəniyyətin müxtəlif sahələrini əks etdirir və təhsilin müvafiq bölmələrində həyata keçirilə bilər;
- hər bir uşağın sosial inkişafının səmərəliliyi məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətlərini nəzərə alaraq, nəticələrin vaxtında və keyfiyyətli monitorinqinin aparılması ilə əvvəlcədən müəyyən edilir.

Məktəbəqədər yaşlı uşaqların sosial tərbiyəsində mövcud olan problemlərin həllində, sosial inkişafın formalaşmasına mane olan cəhətlərin aradan qaldırılmasında, həmçinin uşaq şəxsiyyətinin formalaşmasında, birgə fəaliyyət bacarıqlarının aşılanmasında valideynlərlə tərbiyəçi-müəllimlərin qarşılıqlı əməkdaşlığı vacibdir. Uşağın sosial tərbiyəsində ailə tərbiyəsi, valideyn-uşaq münasibətləri, uşağın fərdi xüsusiyyətləri mühüm rol oynayır. Obyektiv və subyektiv amillər vəhdətdə götürülməli, məqsədyönlü iş aparılmalıdır ki, uşaqların təbii imkanlarını reallığa çevirmək mümkün olsun.

**Mövzunun aktuallığı.** Sosial inkişaf problemləri hər yaş dövründə aktualdır. Xüsusilə məktəbəqədər yaş dövründə bu problemlər daha aktualdır, çünki bu yaş dövründə heç bir sosial təcrübəsi olmayan, ailələrdən gələn uşaqlar məktəbəqədər müəssisələrin müxtəlif yaş qruplarına düşürlər. Onların sosial inkişafında olan problemlər də məhz bu dövrdə özünü büruzə verir.

**Mövzunun elmi yeniliyi** ondan ibarətdir ki, müəllif məktəbəqədər təhsil müəssisəsində uşağın sosiallaşma səviyyəsinə xüsusi göstəricilərin köməyi ilə nəzarət etməyin mümkün olduğu qənaətinə gəlir və qeyd edir ki, məktəbəqədər yaş dövründə uşağın əldə etdiyi bacarıqlar yalnız uğurlu sosial inkişafın nəticəsi ola bilər. Daha bir elmi yenilik də odur ki, məktəbəqədər təhsil müəssisələrində uşağın sosiallaşma səviyyəsinə xüsusi göstəricilərin köməyi ilə nəzarət etməyin mümkünlüyü qeyd olunur və bu göstəricilər sadalanır.

**Mövzunun praktik əhəmiyyəti.** Bu nəticəyə gəlirik ki, məktəbəqədər yaş dövrü uşağın sosial inkişafında ən həssas dövrdür və bu dövrdə onların sosial inkişafı faktiki, çoxtərəfli fəaliyyətlərlə həyata keçirilir. Məqalə məktəbəqədər

müəssisələrin tərbiyəçiləri, ali məktəblərin müvafiq fakültələrində təhsil alan tələbələr və tədqiqatçılar üçün faydalı ola bilər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). "Azərbaycan müəllimi", 25 oktyabr.
2. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartları". (2019). Bakı, 8 avqust, edu.gov.az.
3. Cəfərova L. (2009). Məktəbəqədər təhsilin yeniləşdirilməsi yollarında. Bakı, "Məktəbəqədər və ibtidai təhsil", № 2, s. 15–21.
4. Cəfərova L. (2011). Məktəbəqədər təhsil: inkişafin prioritetləri və problemləri. Bakı, TPİ, "Elmi əsərlər", № 3, s. 68–72.
5. Cəfərova L. (2013). Məktəbəqədər müəssisələrdə təlim prosesində keyfiyyətin idarə olunması. Bakı, "Kurikulum", № 3, s. 43–47.
6. Cəfərova L. (2016). Məktəbəqədər təhsilin konseptual problemləri. Məktəbəqədər təhsilin yeni məzmunu və idarə olunmasi məsələləri. TPİ, "Elmi əsərlər", Bakı, s. 31–49.
7. Vigotskiy L.S. (1982). Voprosi teorii i istorii psixologii. (sobraniye sochineniy v shesti tomax). Moskva, «Pedagogika».
8. Lyublinskaya A.A. (1971). Detskaya psixologiya. (uchebnoye posobiye dlya studentov pedagogicheskix institutov). Moskva, "Prosvesheniye", 216 s.
9. Mardaxayev L.V. (2002). Slovar' po sotsial'noy pedagogike. Moskva, "Akademiya", 368 s.